## 22 noyabr Ədliyyə İşçiləri Günüdür

# 100 il ədalətin keşiyində

***Qədim və zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı özünün azadlığı və müstəqilliyi uğrunda daim mübarizə aparmış, Azərbaycan tarixinin əhəmiyyətli və yaddaqalan dövrlərindən olan XX əsrin əvvəllərində, dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda istiqlaliyyətini elan etmişdir.***

1918-ci il may ayının 28-də Şərqdə ilk demokratik dövlət quruluşu kimi yaranmış Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın müstəqillik tarixinin başlanğıcı olmaqla milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmişdir. Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etmişdir ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadirdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan Respublikasında 28 may tarixi Respublika Günü kimi hər il təntənə ilə qeyd edilir. Müstəqil Azərbaycan dövlətinin Ədliyyə Nazirliyi ilk dəfə 1918-ci ilin may ayının 28-də–Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gün yaradılmışdır. Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur. Həmin ilin noyabr ayının 22-də nazirliyin Əsasnaməsi təsdiq edilmiş, funksiya və səlahiyyətləri müəyyən olunmuşdur. Ədliyyə Nazirliyinin dövlətin yaradıldığı gün təsis edilməsi milli dövlət quruculuğunda ədliyyə sisteminə xüsusi əhəmiyyət verilməsinə dəlalət edir.

Bununla belə Ədliyyə tarixinə nəzər salanda görmək olur ki, həmin tarix unudulmaz hadisələrlə yanaşı keşməkeşli səhifələrlə də zəngin olmuşdur. 1920-ci ildə ölkə işğal edildikdən sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi ləğv edilmişdir. Bundan sonra Xalq Ədliyyə Komissarlığı yaradılmış və səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. Lakin bir müddət sonra - 1930-cu ildə Xalq Ədliyyə Komissarlığı da ləğv edilmişdir. Onun funksiyaları prokurorluğa, Ali Məhkəməyə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir. 1933-cü ildə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmişdir. Bu zaman onun səlahiyyətinə qanun layihələrinin hazırlanması, qanunların şərhi, məhkəmə kadrlarının hazırlanması, əhaliyə hüquqi yardımın təşkili, penitensiar sisteminin idarə olunması, Ali Məhkəməyə, prokurorluğa və vəkillərə rəhbərlik etmək funksiyaları daxil edilmişdir. Ədliyyə tariximizin növbəti bir mərhələsində - 1937-ci ildə Xalq Ədliyyə Komissarlığının yeni əsasnaməsi təsdiq edilmişdir. Bu əsasnaməyə görə komissarlığın səlahiyyətləri xeyli məhdudlandırılmışdır. Komissarlığın əsas fəaliyyət sahəsi məhkəmə və notariat orqanlarının işinin təşkili və onlara rəhbərlik etməkdən ibarət olmuşdur.

1959-cu il ədliyyə taraiximizin demək olar ki, ən çətin və mürəkkəb mərhələsi olmuşdur. Həmin ildə Ədliyyə Komissarlığı yenidən ləğv edilmişdir. Məhkəmə orqanlarının fəaliyyətinə rəhbərlik və nəzarət, məhkəmə statistikasının aparılması Ali Məhkəməyə həvalə edilmişdir. Onun digər səlahiyyətləri isə Nazirlər Soveti yanında hüquq komissiyası və ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülmüşdür. Beləliklə, ədliyyə sisteminin stabil funksiya və struktura malik olmaması onun inkişafına ciddi əngəllər törətmişdir.

Xüsusi olaraq qeyd olunmalıdır ki, Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə yaradılması ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir.

Belə ki, ümummilli liderin respublikaya rəhbərliyi dövründə - 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmişdir. Bununla da Azərbaycan ədliyyəsinin tarixində yeni mərhələ başlanmışdır. Həmin dövrdən Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək Ali Məhkəmədən başqa bütün məhkəmə orqanlarına təşkilati rəhbərliyi və məhkəmə idarəçiliyini həyata keçirmiş, əhaliyə hüquqi yardımı, notariat fəaliyyəti və məhkəmə ekspertizasının aparılmasını, hüquqi biliklərin təbliğini təmin etmişdir. Bir müddət sonra - 1972-ci ildə nazirliyin əsasnaməsi təsdiq edilmişdir. Ədliyyə sisteminin yeniləşən fəaliyyətini tənzimləyən mühüm normativ sənədlərin qəbul edilməsi ilə ədliyyə işinin gələcək inkişafı üçün hərtərəfli zəmin yaranmışdır.

1991-ci ildə xalqımız dövlət müstəqilliyini bərpa etdi. Dərhal sonra onu itirmək təhlükəsi ilə də qarşılaşdı. 1918-ci ildə yaranan və cəmi 23 ay çəkən Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan Respublikasının ömrü isə daha qısa ola bilərdi. Ermənistanın hərbi təcavüzü və torpaqlarımızın işğalı davam edirdi, ölkə vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı.

Respublikanın ağır vəziyyətində xalqın çağırışına əsasən dahi öndərin xilaskarlıq missiyası nəticəsində milli dövlətçiliyimizin itirilməsi təhlükəsi aradan qaldırıldı, cəbhədə atəşkəsə nail olundu, ordu quruculuğuna başlanıldı, daxili sabitlik bərqərar edildi, ölkəni bürümüş hərtərəfli tənəzzülün qarşısı alındı. Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş xalqımızın ümummilli liderinin rəhbərliyi ilə ictimai həyatın bütün sahələrində köklü islahatlar həyata keçirildi. İslahatların ən geniş vüsət aldığı sahələrdən biri də hüquq sistemi oldu.

Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ilk milli Konstitusiyamızla demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməli qoyuldu.

Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü olaraq müəyyən olunmuşdur. Hər il noyabr ayının 22-də ədliyyə işçiləri öz peşə bayramlarını böyük ruh yüksəkliyi ilə qeyd edirlər.

Ulu öndərin hüquq siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin insan haqlarının etibarlı qorunması, hüquqi xidmətin yaxşılaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması barədə tapşırıqlarının icrası üzrə görülmüş tədbirlər nəticəsində Azərbaycan ədliyyə sistemi öz inkişafının yeni, müasir mərhələsinə qədəm qoymuşdur. Ədliyyə fəaliyyətinin normativ hüquqi əsasları təkmilləşdirilmiş, 2006-cı ildə ölkə Prezidenti tərəfindən nazirliyin yeni Əsasnaməsi təsdiq olunaraq cəmiyyətdə mühüm rolu təsbit edilmiş, ona hüquq mühafizə orqanı statusu verilmişdir. Həmçinin, ölkə Prezidenti tərəfindən 2006-cı ildə "Ədliyyə orqanlarının inkişafı haqqında", Məhkəmə sisteminin fəaliyyətinin müasirləşdirilməsi barədə proqram xarakterli fərmanların imzalanması, dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" qanunların qəbul olunması Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələ olmuşdur. İşə qəbulun şəffaf üsullarla həyata keçirilməsi məqsədilə 2004-cü ildən nazirliyin müxtəlif qurumlarına işə qəbul açıq müsabiqə əsasında keçirilməyə başlanmış və yaranmış müsbət təcrübə əsas götürülməklə ölkə başçısının 13 dekabr 2007-ci il tarixli Fərmanı ilə işə qəbulun yeni qaydaları müəyyən olunmuşdur. Hazırlıqlı hüquqşünaslar müsabiqədən keçərək artıq ədliyyə orqanlarına qulluğa qəbul edilmişlər və uğurlu fəaliyyət göstərirlər. Bu sahədə görülən tədbirlər sırasında ölkə Prezidentinin fərmanı ilə ədliyyə sahəsində çalışan çoxminli kollektivin və digər hüquqşünas kadrların ixtisasının təkmilləşdirilməsinə xidmət edən yüksək statuslu tədris ocağının - Ədliyyə Akademiyasının təsis olunması xüsusi qeyd olunmalıdır.

Böyük öndərin işıqlı ideya və amallarına, siyasi irsinə daim sadiq olan müdrik Azərbaycan xalqı yüksək vətəndaş həmrəyliyi göstərərək bu il cənab İlham Əliyevi yenidən ölkə Prezidenti seçməklə öz şərəfli tarixində növbəti uğur və nailiyyətə imza atmış, ölkəmizin davamlı inkişafına təminat əldə etmişdir. Müstəqil dövlətimizin banisi, dahi öndərin ədliyyə işçilərinə bəxş etdiyi peşə bayramı bu il xüsusilə əlamətdardır - əlamətdardır ona görə ki, ədliyyə sistemi həm də 100 illik yubileyini qeyd edir. Xalq Cümhuriyyətinin yubileyinin layiqincə keçirilməsi məqsədi ilə ölkə Prezidenti «Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi haqqında» 16 may 2017-ci il tarixli Sərəncam imzalanmışdır.

Cümhuriyyətin yaranmasının 100 illiyinin geniş qeyd olunduğu günlərdə Prezidentimiz İlham Əliyev tərəfindən «Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)» yubiley medalının təsis olunması müstəqillik tariximizə əvəzsiz töhfədir. Cümhuriyyət liderlərinin varislərinə, Azərbaycan Xalq Cumhuriyyəti irsinin tədqiqinə və təbliğinə, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılmasında və inkişafında, ölkənin ictimai-siyasi həyatında xüsusi xidmətlərə görə verilən yüksək dəyərdir.

**Rəfayel ŞİRİNOV.**
**Qəbələ Rayon Məhkəməsinin sədri vəzifəsini icra edən.**

# Şəhər 2 nömrəli tam orta məktəbdə



Qəbələ şəhər 2 nömrəli tam orta məktəbdə Dövlət Bayrağı Günü ilə əlaqədar bayram tədbiri keçirilmişdir.

Məktəb kollektivinin, valideyinlərin iştirak etdiyi tədbiri giriş sözü ilə məktəbin müəllimi Aytəkin Abidova açmışdır. Tədris ocağının direktoru Təranə Səlimova Dövlət Bayrağı Günü münasibətilə tədbir iştirakçılarını təbrik etmiş, Dövlət Bayrağının qəbul olunma tarixi haqqında, onun müstəqil respublikamızda yenidən dalğalanmasında ulu öndər Heydər Əliyevin rolu barədə danışmışdır.

Məktəbin 7a sinif şagirdi Qadir Səmədli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dövlət Bayrağı Günü ilə əlaqədar 17 noyabr 2009-cu il tarixli Sərəncamını oxumuşdur.

Bayram tədbiri şagirdlərin hazırladığı bədii proqramla davam etmişdir.

**Səhrab UMUYEV,**
**"Qəbələ"**

# Dövlət Bayrağı Günü ilə əlaqədar tədbir keçirilmişdir

Aydınqışlaq kənd tam orta məktəbində 9 noyabr Dövlət Bayrağı Gününə həsr olunmuş "Bayraq mənim and yerimdir" adlı tədbir keçirilmişdir.

Tədbiri məktəb direktorunun müavini Natavan Əfəndiyeva açmışdır. Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra məktəbin tarix müəllimi Təmraz Mehdiyev Dövlət Bayrağımızın qəbul olunma tarixi, bayraqdakı üç rəngin, üzərində həkk olunmuş ay və ulduzun mənaları haqqında məlumat vermişdir. O, bildirmişdir ki, 1920-ci ildə Azərbaycanda Sovet Hakimiyyətinin qurulması ilə qadağan olunan üçrəngli bayrağımız düz 70 il sonra ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yenidən müstəqil Azərbaycan Respublikasının Dövlət Bayrağı statusuna qovuşmuşdur.

Qeyd olunmuşdur ki, Prezident İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli Sərəncamı ilə hər il noyabr ayının 9-u Azərbaycan Respublikasında Dövlət Bayrağı Günü kimi qeyd olunur.

Bayram şənliyi məktəblilərin hazırladığı bədii proqramla davam etmişdir.

**Rəna XANCANOVA,**
**Aydınqışlaq kənd diyarşünaslıq klubunun müdiri.**

# Ağacəkmə aksiyası keçirilib

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin kollektivi "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə 100 min ağac" devizi altında keçirilən ağacəkmə aksiyasına qoşularaq, noyabrın 17-də mərkəzinin ərazisində 300-dək müxtəlif ağac əkiblər.

Qəbələ regional Meşə Təsərrüfatı Mərkəzi tərəfindən verilmiş qiymətli cökə və çinar tinglərilə yanaşı, ərazidə alma, xurma, gavalı, zoğal və digər meyvə ağacları da əkilib.



Mövsüm ərzində təhsil müəssisəsinin kollektivi şəhərimizdə meyvə ağacları ilə yanaşı gül kollarının da əkilməsini nəzərdə tutmuşdur.

**Səlim MEHDİYEV,**
**mərkəzin baş ustası.**

# Komandamız qalib gəlib

"Xəmsə" milli intellektual oyunu üzrə yeniyetmələr arasında VI Azərbaycan çempionatının noyabrın 10-da Qax şəhərində keçirilən zona mərhələsininə yekun vurulub.

Yarışda Qəbələ, Balakən, Zaqatala, Qax, Şəki və Oğuz rayonlarını təmsil edən 16 komanda mübarizə aparıb. Yekun nəticələrə əsasən, rayonumuzun "Şahdağ" və "Qəbələ" komandaları və Balakənin "Qubek" komandası ilk üç yeri tutaraq çempionatın final mərhələsində iştirak etmək hüququ qazanıblar.

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə ənənəvi olaraq hər il keçirilən bu yarışlar yeniyetmə və gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, eləcə də onların asudə vaxtlarının mənalı və səmərəli təşkilinə kömək məqsədi daşıyır.

**Rais RƏŞİDOV,**
**"Qəbələ"**